**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**№ 3-13/Q13/2025**

**Bakı şəhəri** **5 mart 2025-ci il**

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2013-cü il 14 yanvar tarixli Q1-001-13 nömrəli Qərarı ilə təsdiq edilmiş "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"da və 2017-ci il 12 may tarixli Q25-001-17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yol-patrul xidməti haqqında Təlimat"da dəyişiklik edilməsi barədə**

"Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 mart tarixli 138s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"nin 5.6-cı bəndini rəhbər tutub, Kollegiya

**Q Ə R A R A  A L I R:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2013-cü il 14 yanvar tarixli Q1-001-13 nömrəli Qərarı ilə təsdiq edilmiş "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu hissə üzrə:

1.1.1. 9.5-ci bənddə və 9.14.1-ci yarımbənddə ismin müvafiq hallarında "aeroportlar" sözü ismin müvafiq hallarında "hava limanları" sözləri ilə əvəz olunsun;

1.1.2. 9.7.1-ci yarımbənddə və həmin Qərarla təsdiq edilmiş Təlimatın 8 nömrəli əlavəsində ismin müvafiq hallarında "aeroport" sözü ismin müvafiq hallarında "hava limanı" sözləri ilə əvəz edilsin;

1.1.3. 9.12-ci və 9.101-ci bəndlərdə ismin müvafiq hallarında "təyyarə" sözü ismin müvafiq hallarında "hava gəmisi" sözləri ilə əvəz olunsun;

1.1.4. 9.14.2-ci yarımbənddə "vertolyotlara" sözü "helikopterlərə" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2017-ci il 12 may tarixli Q25-001-17 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yol-patrul xidməti haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.13.2-ci yarımbənddə "vertolyotları (helikopter)" sözləri "helikopterləri" sözü ilə əvəz olunsun;

2.2. 4.1.4-cü yarımbənddə və 4.16-cı bəndin ikinci cümləsində "vertolyotla" sözü "helikopterlə" sözü ilə əvəz edilsin.

3. Qərar qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilsin.

4. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

5. Qərar respublika daxili işlər orqanlarında elan edilsin.

**Kollegiyanın sədri**
**general-polkovnik** **Vilayət Eyvazov**